# "Distant təhsildə çağırışlar və nailiyyətlər"



## Konfransda mövzu geniş müzakirə olunub

Noyabrın 29-da "Distant təhsildə çağırışlar və nailiyyətlər" mövzusunda konfransı öz işinə başlayıb. Konfrans Təhsil İnstitutunun (ARTİ) təşkilatçılığı, ADA Universitetinin və "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının tərəfdaşlığı, Təhsil Nazirliyinin dəstəyi ilə keçirilib.

Konfransın açılış sessiyası Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehovun moderatorluğu ilə baş tutub.

Açılış sessiyasında çıxış edən təhsil naziri Emin Əmrullayev əvvəlcə konfrans iştirakçılarını salamlayıb və konfransın işinə uğurlar arzu edib. Nazir bildirib ki, distant təhsilin tətbiqi zamanı nəzəriyyədən praktikaya keçid dövründə ortaya müəyyən məsələlər çıxıb və Azərbaycanda bu məsələlərin dərhal həlli, operativ şəkildə distant təhsilə keçidin təşkil edilməsi istiqamətində bir sıra uğurlu işlər görülüb.

Emin Əmrullayev qeyd edib ki, pandemiya zamanı təhsilin keyfiyyətinin qiymətləndirilməsi və keyfiyyətə nəzarət parametrlərinin müəyyən olunması, məktəbəqədər yaşlı uşaqların təhsilə cəlb edilməsi, onların sosial-emosional inkişafının təmin olunması və təhsilin təşkili baxımından qarşıda duran hədəflərin reallaşdırılması olduqca mühüm əhəmiyyət kəsb edir.

Daha sonra çıxış edən ARTİ-nin direktoru Rüfət Əzizov ənənəvi təhsildən distant təhsilə keçid, müəyyən dövrlərdə isə hibrid təhsilin təşkili barədə danışıb. Qeyd edib ki, daha əvvəl şagirdin öyrənməsi üçün məzmun, müəllim və qiymətləndirmə komponentlərindən danışırdıqsa, artıq 4-cü komponent olan texnologiya da bu siyahıya əlavə olunub. Bu komponentin əlavə olunması özü ilə proseslərə yeni tərəfdaşların cəlb edilməsini də zəruri edib.

ADA Universitetinin akademik işlər üzrə prorektoru Vəfa Kazdal isə çıxışında "4-cü Sənaye inqilabı dövründə təhsil" modelinin formalaşdığını vurğulayıb. Distant təhsilə keçidlə bağlı əldə edilən nailiyyətlər və çağırışlardan bəhs edən Vəfa Kazdal bu təhsil metodunun təhsildə keyfiyyətin, səmərəliliyin artırılması üçün effektiv vasitə olduğunu bildirib.

Sonda "T-Network"un tədqiqat və inkişaf üzrə baş mütəxəssisi Qoşqar Məhərrəmov ölkəmizdə pandemiya dövründə Təhsil Nazirliyi tərəfindən həyata keçirilən distant təhsil layihələrinin, elektron platformaların, distant dərslərin uğurlu icrasından danışıb.

Qeyd edək ki, konfrans gün ərzində panel müzakirələri ilə davam edib.

## Konfrans başa çatıb




"Distant təhsildə çağırışlar və nailiyyətlər" konfransı başa çatıb.

Konfransın "Azərbaycanın distant təhsil təcrübəsi" adlı panel müzakirəsində Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri Nicat Məmmədli, ARTİ-nin direktoru Rüfət Əzizov və Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin Ümumi şöbəsinin müdiri Fidan Nəcəfova çıxış ediblər.

Daha sonra "Məsafədən təhsil dövründə ali və orta ixtisas təhsili müəssisələrinin təcrübəsi" adlı sessiyada ARTİ-nin Elmi-pedaqoji tədqiqatlar mərkəzinin direktoru İlham Cavadov və Təhsildə strateji tədqiqatlar şöbəsinin müdiri Könül Abaslı məruzə ediblər.

Konfransda "Məsafədən təhsil dövründə ali və orta ixtisas təhsili müəssisələrinin təcrübəsi", "Distant təhsildə öz-özünə öyrənmə və ömürboyu təhsil meyilləri", "Ənənəvi təhsildən distant təhsilə keçid: Azərbaycan Dövlət İqtisad Universitetinin təcrübəsi", "Rəqəmsal öyrənmə platformalarının imkanları və məhdudiyyətləri: ADA Universitetinin təcrübəsi", "Virtual beynəlxalq təcrübə" və digər sessiyalarda müxtəlif məzmunda təqdimatlar dinlənilib.

Qeyd edək ki, konfransda 900-dən çox şəxs iştirak edib.